

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir
fəlsəfəsi şöbəsinin müdiri, dos., dr.
Faiq Ələkbərli**

# Türkçülük təliminin mahiyyəti: siyasi-ideoloji, yoxsa sosial-fəlsəfi cərəyan



***Türkçülük təliminin mahiyyəti: siyasi-ideoloji, yoxsa sosial-fəlsəfi cərəyan 6. yazı AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsinin müdiri, dos., dr. Faiq Ələkbərli Azərbaycan Cümhuriyyətinin qurucusu, ilk cümhurbaşqanı, mütəfəkkir-filosof Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşündə sosial-fəlsəfi ideyalar bu cür şəkillənmişdir: 1) Türklük, 2) İnsanlıq, 3) İslamlıq, 4) Azərbaycanlıq. Bizcə, buradakı türklük əgər milli-məhəlli xarakter daşıyarsa Azərbaycan türklüyü, ancaq ümumi xarakter daşıyarsa Türkçülük kimi ifadə olunmalıdır. Belə olduğu təqdirdə, fikrimizcə, bu gün Azərbaycan milli konsepsiyasının əsas mahiyyətini aşağıdakı dördlük təşkil etməlidir: 1) Türklük (Azərbaycan türklüyü – milliyyətçilik), 2) Türkçülük (Türk fəlsəfəsi, Türk dünyagörüşü, 3) İslamlıq, 4) İnsanlıq. Beləliklə, biz Türklüyü iki anlamda dərk etməliyik: Birincisi, Türklük siyasi anlamda milli-məhəlli xarakter daşıyır və Azərbaycan türklüyünü – Azərbaycan milliyyətçiliyini özündə ifadə edir. Bu halda da türklük və azərbaycanlılıq bir-birinin eyniliyidir. 1918-ci ildə qurulan Türk Cümhuriyyətinə "Azərbaycan" adı verilərkən də məhz bu eynilikdən çıxış edilmişdir. Doğrudur, o zaman "Azərbaycan" sözü hərfi mənada daha çox "odlar yurdu" kimi başa düşülmüşdür.***

Ancaq çox maraqlıdır ki, bu zaman türklüklə üst-üst düşən əsas məsələ kimi "tarixi-çoğrafi Azərbaycan"da əsasən Oğuz, qismən də Qıpçaq Türk boylarının vahid millət kimi eyni dilə, mədəniyyətə, ədəbiyyata, adət-ənənələrə, tarixə, fəlsəfəyə sahib olması mühüm rol oynamışdır. Bu baxımdan "Azərbaycan" anlayışının farsca "odlar yurdu" kimi uydurulmuş izahı belə, heç bir məna kəsb etməmişdir və bu gün də etmir. Çünki "Azərbaycan Cümhuriyyəti" adıyla yanaşı ortaya çıxan Oğuzustan, Xəzəristan adları da əslində bir-birinin eynidir. Belə olduğu təqdirdə "Azərbaycan" sözü hərfi mənada da "odlar yurdu" deyil, elə Oğuzlar ölkəsi, Xəzərlər ölkəsi, Türklər ölkəsi deməkdir. İkincisi, Türk, Türklük sosial-fəlsəfi anlamda ümum türklüyü (Türk fəlsəfəsini, Türk dünyagörüşünü) ifadə edir və Türk xalqlarının ortaq tarixə, fəlsəfəyə, ədəbiyyata, dünyagörüşə sahiblənməsinəəsaslanır. Bu halda isə Türklük Azərbaycan türklüyü (azərbaycanlılıq) ilə yanaşı digər milli-məhəlli Türk ideyalarını (Türkiyə türklüyü, Qazaxıstan türklüyü, Tatarıstan türklüyü, Uyğurustan türklüyü, Krım türklüyü, Özbəkistan türklüyü, Başqırdıstan türklüyü və b.) özündə ifadə edir. Bu prizmadan yanaşsaq, Türk dünyagörüşünün, Türk fəlsəfəsinin son əsrdə yalnız Türkiyə türklərinin boyununa biçilməsi, buna uyğun olaraq da Türk mədəniyyəti, Türk dili, Türk fəlsəfəsi, Türk tarixi dedikdə, ancaq Türkiyə türklüyünü başa düşmək yanlışdır. Türkiyə türklüyü də milli-məhəlli türklük ideyalarından biri olub, ümum türklüyün sadəcə bir parçasıdır. Yəni Türkiyə türklüyü digər milli-məhəlli türklük ideyalarından (Azərbaycan türklüyü, Qırğızıstan türklüyü, Uyğurustan türklüyü, Tatarıstan türklüyü, Başqırdıstan türklüyü, Krım türklüyü və b.) biri olub, sadəcə son əsrdə, xüsusilə Mustafa Kamal Atatürkün sayəsində öz müstəqilliyini qoruyub saxlaması və türklüyün ümid yeri kimi mövcudluğuna görə ön plana çıxmışdır. Atatürk "Türk milləti" dedikdə, Türk dünyagörüşünə, Türk əxlaqına sahib olanları nəzərdə tuturdu. Yəni buradakı "Türk milləti" qavramı yalnız gen-qan, soy, dil birliyinə görə deyil, ümumilikdəəxlaqı, inancı, dünyagörüşü bir olanlara aid idi. Ümumiyyətlə, burada Türklüyü və Türkçülüyü də bir-birindən fərqləndirmək lazımdır. Türklük daha çox sadəcə şəxsi kimliyini, danışdığı dili, tapındığı adət-ənənələri Türk olaraq qəbul edib bununla kifayətlənməkdirsə (Türk kimliyi, Türk milliyyəti), Türkçülük millətdə milli ruh, mili düşüncə, milli özünüdərk uğrunda mübarizə aparmaq, bir sözlə onu yenidən bir təlim, sistemli məfkurə (Türk fəlsəfəsi, Türk dünyagörüşü) halına gətirməkdir. Bunu, vaxtilə M.Ə.Rəsulzadə belə ifadə etmişdi: "Türklüklə türkçülük arasında böyük fərq vardır. O fərq nədir? Millətdə milli ruh, milli düşüncə, milli özünütanıma, milli şəxsiyyət lazımdır. Biz millətə bunu verməyə çalışırız" (Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), 1998, 260). Rəsulzadənin ifadə etdiyi Türkçülük birmənalı olaraq Türk fəlsəfəsi, Türk dünyagörüşü idi. Beləliklə, burada ifadə etmək istədiyimiz əsas məsələ odur ki, Türklüyün və Türkçülüyün təməl prinsiplərini doğru-dürüst mənimsəmədikcə, daima problemlər içində yaşamalı olacağıq. Başqa sözlə, Osmanlı dönəmində türklərin "osmanlı", çar Rusiyası dövründə Azərbaycan türklərinin nədən "tatar", Sovet Rusiyası dövründə "azərbaycanlı", Pəhləvilərlə İran-Molla rejimlərində "iranlı" və buna uyğun olaraq dilinin də "osmanlı", "tatar dili", "Azərbaycan dili", "azəri dili" adlandırılmasının əsil mahiyyətini ortaya qoymadan Türklükdən, Türk fəlsəfəsindən danışmaq mənasızdır.

Bu baxımdan bugünkü Azərbaycan Respublikasında dilimizin adının Azərbaycan dili deyil, Türk dili adlandırılması, siyasi anlamda azərbaycanlı olmaqla yanaşı Türklüyümüzün ifadə edilməsi tələblərinin irəli sürülməsinin milliyyətçilik, ya da millətçiliklə aşağı-yuxarı heç bir əlaqəsi yoxdur. Bu müddəamız Türkiyədə "Türk milləti" qavramı yerinə "Türkiyə milləti" kəlməsini ortaya adanların tezislərinə də cavabdır. "Türk", "Türk milləti" qavramlarından müxtəlif bəhanələrlə imtina edərək, onun yerinə yalnız "Türkiyə milləti", "Azərbaycan milləti", "Qazaxıstan milləti", "Özbəkistan milləti" anlayışlarından istifadə etmək doğru deyil. Biz Türk xalqları, ilk növbədə Türk dünyagörüşünə, Türk tarixinə, Türk fəlsəfəsinə, Türk ədəbiyyatına, Türk dövlətçiliyinə doğru-dürüst sahib çıxmalıyıq. Çünki dövlətlərimizin adı ilə (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və b.) dilimizi, ədəbiyyatımızı, tariximizi, dövlətçiliyimizi məhdudlaşdırmaqla əslində özümüz öz əlimizlə düşmənlərimizəəsaslı bəhanələr vermiş oluruq. Hər halda dövlətin adı ilə bağlı olan anlayışlarla bir milləti, onun dilini, ədəbiyyatını, fəlsəfəsini ancaq müəyyən bir çərçivədə ifadə etmək mümkündürsə, ancaq hər hansı bir ideya, dünyagörüş əsasında isə onun sərhədləri daha da genişlənir. Məsələn, bu anlamda "Azərbaycan" ideyası daha çox tarixi-coğrafi Azərbaycanı, həmin tarixi-coğrafi Azərbaycanda yaşayan Türk, qeyri-Türk bütün etnosları vahid mədəniyyət, dövlətçilik çatısı altında bütünləşdirdiyi halda, ancaq onu Türk dünyagörüşündən, Türk dövlətçilik, Türk fəlsəfəsindən, Türk adət-ənənələrindən uzaq tutmaq əsas nüvədən məhrum etmək deməkdir. Bir şey unutmaq olmaz ki, 100 il öncə "Azərbaycan" ideyasını ortaya atıb onu bir Türk dövlətinin rəsmi adı halına gətirənlər üçün başlıca qayə Azərbaycan türklərini, o cümlədən də digər etnosları vahid bir çatı (mədəni, dil, adət-ənənə, iqtisadi, tarixi və s.) altında tutmaq olmuşdur. Ancaq bütün hallarda ilk dəfə siyasi məfkurə kimi ortaya atılan "Azərbaycan" ideyasının da əsas canı, qanı, ruhu bir sözlə, hər şeyi Türk dünyagörüşü, Türklük/Turançılıq fəlsəfəsi idi. Bu qətiyyən dəyişə bilməz, dəyişməməlidir də. Türk dünyagörüşünə əsaslanmayan, yəni milli nüvəsi Türklükdən uzaq tutulan "Azərbaycan", "Türkiyə", "Özbəkistan", "Qazaxıstan" və digər ideyalar o deməkdir ki, onların ən yaxşı halda varlığı təqribən 100 il civarındadır. Onsuz da, bunu Türklük əleyhdarları hər fürsətdə dilə gətirirlər, yazırlar. Belə olduğu təqdirdə, dilimizin Türk dili, ədəbiyyatımızın Türk ədəbiyyatı, fəlsəfi fikrimizin Türk fəlsəfi fikir tarixi adlandırılmasının qəti əleyhinə olub yeri gəldi gəlmədi, anlamı oldu, ya da olmadı hər şeyi yalnız "Azərbaycan", "Türkiyə", "Özbəkistan", "Qazaxıstan" və digər anlayışlar çəçivəsində görmək doğru deyildir. Qeyd edək ki, Türkçülüyün sosial-fəlsəfi xarakter daşıımasını M.Ə.Rəsulzadə "Azərbaycan şairi Nizami" əsərində böyük Azərbaycan Türk mütəfəkkiri, filosof Nizami Gəncəvinin nümunəsində çox dəqiq izah etmişdir. N.Gəncəvinin dünyagörüşündə türklük və insanlıq bir birini daim tamamlamış, onun fəlsəfəsində Türklük, Türkçülük İnsanlıq fəlsəfəsinin sinonimi kimi ifadə olunmuşdur. Bu baxımdan hesab etmək Polar ki, N.Gəncəvinin dünyagörüşünün Türklük və İnsanlıq əsasında obyektiv, elmi prinsiplərə əsaslanan şərhi, təfsiri ilk dəfə Məhəmməd Əmin Rəsulzadə tərəfindən verilmişdi. Rəsulzadə N.Gəncəvinin Türk fəlsəfi düşüncəsinə, Türk mədəniyyətinə və insanlıq fəlsəfəsinə bağlılığını vaxtında görərək, bütün bunları "Azərbaycan şairi Nizami" əsərində dolğun şəkildə əks etdirə bilmişdi.

***Nizami Gəncəvi demək olar ki, bütün əsərlərində dünyada müdriklik, əxlaqlılıq, nəciblik, alicənablıq, igidlik, paklıq və bu kimi digər xüsusiyyətləri Türklüyə aid hesab etmişdir. Filosof-şair "Sirlər xəzinəsi"ndə dəfələrlə Türk düşüncəsinə, Türk etiqadlarına müraciət etmişdi: Türkə bənzər yasəmən çöldə qurub ağ çadır, Çadırın ayparası Süreyyaya nur saçır. Burada o, ağ yasəməni qıpçaqlarda (əngin çöllərdə) yurd salmış türklərin aypara şəkilli döyüşçü çadırına oxşadır və bu çadır guya, o qədər əzəmətlidir ki, Süreyya ulduzundadək ucalıb ona şölə verir. Nizami daha sonra yazır: Lalənin bağrı qara – ərəb yavrusu kimi, Türk yasəmən Yəməndə Süheyl ulduzu kimi! "Türk yasəmən" ifadəsi Nizaminin ənənəvi məcazlarındandır və türkün qədim dövrlərdən əbədi bahar, təzəlik, paklıq rəmzi olduğuna işarədir. M.Ə.Rəsulzadə də yazır ki, Nizami Gəncəvi "Türk" dedikdə – gözəl, mərd, qəhrəman, döyüşçü, sərkərdə, həmçinin bilici, ər, rəhbər və başçı nəzərdə tutur; "türklük" dedikdə – vəfanı, düzgünlüyü və istədiyinə qovuşmağı nəzərdə tutur.***